

# SÖZÜN VƏ SƏHNƏNİN USTASI

## MAQSUD İBRAHİMBƏYOV – 90

**Veblioqrafiya**

**Bakı - 2025**

***© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025***

***Tərtib etdi:*** ***Məlumat-biblioqrafiya şöbəsi***

***Əliyeva Lamiyə***

***Ünvan:*** ***Bakı şəhəri, S.Vurğun küçəsi 88***

***Əlaqə:*** ***(+99412) 597-08-79, (+99412) 597-09-86***

***info@clb.az***

***ushaqkitabxanasi@gmail.com***

***childlibbaku@yahoo.com***

## ***Həyat və yaradıcılığı***

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri, tanınmış nasir, dramaturq, ssenarist və publisist Maqsud İbrahimbəyov çoxşaxəli və zəngin yaradıcılığıyla Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində əhəmiyyətli yer tutur.*

*O, 1935-ci il mayın 11-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Dövlət Politexnik İnstitutunun inşaat mühəndisliyi fakültəsini bitirmişdir. Ali təhsilini başa vurduqdan sonra jurnalist kimi fəaliyyətə başlamış, Mərkəzi Radioda xüsusi müxbir vəzifəsində çalışmışdır. Elə həmin dövrdən ədəbi yaradıcılığa da ciddi maraq göstərmiş, qələmini nəsr sahəsində sınamağa başlamışdır. Onun ilk hekayələri 1960-cı illərin əvvəllərində dövri mətbuatda çap olunmuş, 1961-ci ildə isə ilk kitabı işıq üzü görmüşdür.*

*Yaradıcılıq potensialını daha da inkişaf etdirmək məqsədilə M.İbrahimbəyov 1964-cü ildə Moskvada Ali ssenari, 1973-cü ildə isə Ali rejissorluq kurslarını bitirmişdir. Əsərləri təkcə Azərbaycan oxucuları arasında deyil, eyni zamanda beynəlxalq səviyyədə də maraqla qarşılanmış, 36 xarici dildə tərcümə edilmiş və dünyanın bir çox ölkələrində nəşr edilmişdir. Yazıçının müxtəlif illərdə qələmə aldığı "Bütün yaxşılıqlara görə ölüm", "Truskaveçə kim gedəcək?", "Ondan yaxşı qardaş yox idi", "Qoy o bizimlə qalsın", "Bayquş gəldi", "Kərgədan buynuzu" və digər romanları onun ədəbi irsinin mühüm nümunələrindəndir.*

*İbrahimbəyovun əsərləri yalnız bədii ədəbiyyatla məhdudlaşmır, onlar eyni zamanda müxtəlif kinostudiyalarda ekranlaşdırılmış, həmçinin Azərbaycan və xarici ölkələrin teatrlarında səhnələşdirilmişdir. Ümumilikdə, yazıçının pyesləri 50-dən çox teatrda tamaşaya qoyulmuşdur.*

*1999-cu ildə Prezident Heydər Əliyev Azərbaycanda Əsilzadələr Məclisinin fəaliyyətini bərpa etmiş və Maqsud İbrahimbəyov bu quruma rəhbərlik etmişdir. Yazıçının ictimai nüfuzu 2012-ci ildə onun ədəbiyyat üzrə Nobel mükafatı üçün namizəd göstərilməsi ilə bir daha təsdiq edilmişdir.*

*Yazıçı 2016-cı il martın 22-də Bakı şəhərində vəfat etmişdir. Ölümündən sonra onun xatirəsini əbədiləşdirmək məqsədilə Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi təsis edilmişdir.*



## *Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

*2025-ci ilin may ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, Dövlət mükafatı laureatı, tanınmış ictimai xadim Maqsud Məmmədibrahim oğlu İbrahimbəyovun anadan olmasının 90 ili tamam olur.*

*Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.*

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:*

*1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq yazıçısı Maqsud İbrahimbəyovun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.*

*2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 fevral 2025-ci il***

## Görkəmli şəxsiyyətlər Maqsud İbrahimbəyov haqqında

Maqsud İbrahimbəyovun xidmətləri böyükdür. Ədəbiyyatımızda, incəsənətimizdə onun özünəməxsus yeri var. Onun yaradıcılığı, əsərləri özünəməxsus formada, məzmunda, mənadadır və bizim başqa yaradıcı adamlarımızın əsərlərindən fərqi onun məhz bu xüsusiyyətlərindədir.

**Heydər Əliyev,**
**Ümummilli Lider**

Maqsud İbrahimbəyov parlaq istedada malik nasir kimi çoxşaxəli fəaliyyəti ilə Azərbaycan bədii fikrinin zənginləşməsində təqdirəlayiq rol oynamış söz ustalarındandır. Ötən əsrin 60-cı illərində yeni ədəbi prosesin formalaşmasında yaxından iştirak edən sənətkar ərsəyə gətirdiyi dəyərli nəsr nümunələrində qəhrəmanlarının xarakterini dərindən açaraq dolğun və rəngarəng obrazlar yaratmışdır. Onun eyni zamanda dramaturq, kinossenarist və rejissor kimi Azərbaycan kinematoqrafiyasının inkişafında mühüm xidmətləri vardır. Milli koloritin qabarıq təsviri, adət-ənənələrə bağlılıq, xüsusən Bakı mühitinin özünəməxsus mənzərəsinin təsviri Maqsud İbrahimbəyov yaradıcılığını səciyyələndirən başlıca cəhətlərdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasınnın Prezidenti**

Maqsud İbrahimbəyovun yaradıcılığına bir dəfə müraciət edən şəxs sonralar onun əsərlərinə dönə-dönə qayıdır və bu əsərlərdə özü üçün hər dəfə nəsə yeni bir şey tapır. İbrahimbəyov rus dilində yazıb, bununla belə o, əsl xalq yazıçısı olub və belə olaraq da qalır. Çünki onun hər bir əsəri ana torpağa, doğma köklərə məhəbbətdən yoğrulub...

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Maqsud İbrahimbəyovun "Bütün yaxşılıqlara görə ölüm" və "Qoy o, bizimlə qalsın" adlı əsərlərində balaca qəhrəmanın bütün düşüncələri, həyəcanı, hissləri son dərəcə emosional və dolgun boyalarla əks olunub. Əsər o qədər real təsir bağışlayır ki, oxucu istər-istəməz bu obrazla isinişir və özünü uşaq yaşında hiss etməyə başlayır. Yaratdığı qəhrəmanların əksər xüsusiyyətləri Maqsud müəllimin özünə aiddir və bu, sonda mərhəmətlə ağlın mütləq qalib gəldiyini sübut edir. Hər zaman uşaq kimi olun! Onda dünya daha mərhəmətli, ömür daha uzun, hər gün təkrarolunmaz dərəcədə sirli olacaq. Uşaqlarının daxili dünyasına yaxşı bələd olmayan bəzi valideynlər istəyirlər ki, onlar nə vaxtsa öz xəyallarında təsəvvür etdikləri insanlara bənzəsinlər. Uşaq üçünsə ən yaxşısı – özü kimi qalmaq imkanına sahib olmaqdır. Görəsən, niyə böyüklər uşaqlarla

ünsiyyətdə olmağı xoşlayırlar? Məncə, bu, instinktiv olaraq, böyüklərin uşaq kimi azad və səmimi olmaq istəyindən irəli gəlir. Axı uşaqlar – anadangəlmə ekstrasensdirlər, onlarda ədalət hissi çox güclüdür. Əlbəttə, hər uşağın öz xarakteri, eqosu, öz qüruru var. Amma onların həyat təəsüratları böyüklərinkindən daha emosional, daha parlaq təzahür edir. Çünki zehinləri açıq, niyyətləri safdır. Onlar həyatı doya-doya yaşayırlar. Mən bu əsərləri böyük həzlə oxudum. Uşağın daxili aləminin və xarakterinin bütün incəliklərini müəllifin dərindən duyması insanda heyranlıq doğurur. Əminəm ki, qəhrəmanlarının bir çox cizgiləri Maqsud İbrahimbəyovun özünə xas olan özəllikləri əks etdirir. Bu isə xeyirxahlığın və intelektin həmişə qələbə çaldığını sübuta yetirir. Uşaq kimi olun! Onda dünya daha mehriban, ömür uzun olacaq, həyatın hər günü isə öz müstəsna gözəlliyi ilə seçiləcək.

**Leyla Əliyeva,**
**Azərbaycanlı ictimai xadim**

Maqsud İbrahimbəyovun "Qara paltarlı qadın" kitabını oxuyarkən sanki ağ-qara şəkillərlə dolu köhnə fotoalbomu vərəqləyirsən və çoxdan bəri, özü də çox yaxşı tanıdığın onlarla adam onun səhifələrindən diqqətlə sənə baxır. Bu adamların hər biri sənə öz məhrəm həyat hekayəsini danışır. Bununla belə yaddan çıxarmayaq ki, bu hekayələr bizim ümumi tariximizdir və biz onu unutmamalıyıq.

**Tərlan Qorçu,**
**Rejissor, rəssam**

Maqsud İbrahimbəyovun "Qara paltarlı qadın" povestini oxuyub həddən artıq zövq aldım. Gözlənilməz hadisələrlə dolu olan, heç nəyə bənzəməyən, səmimiyyət saçan çox gözəl nəsr nümunəsidir. O qədər gözəl əsərdir ki, ona sadəcə olaraq vuruldum. Maqsuda Bakıya vurulduğum kimi vuruldum...

**Pavel Finn,**
**Kinossenarist**

"Qara paltarlı qadın" əsəri doğrudan da adət etdiyimiz hisslərin partlayışıdır, vərdiş etdiyimiz yoldan cəsarətli və ağıllı şəkildə uzaqlaşmaqdır. Burada yazı sərbəstliyi var. Məişət səhnələrindən pritçanın sərt simvolikasına nadirən baş verən təbii keçid var. Maqsud İbrahimbəyov burada öz imkanlarının miqyasını açıb göstərir.

**Konstantin Şerbakov**
**Kinoşünas**

## *Fotoqalereya*











## *Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi*

*Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi 2018-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən yaradılmışdır. Mərkəz ədəbiyyat və incəsənətin müxtəlif sahələrini əhatə edən mədəni tədbirlərin təşkili ilə məşğuldur. Burada kitab təqdimatları, ustad dərsləri, ədəbi gecələr, teatr tamaşaları, mühazirələr və digər yaradıcı tədbirlər keçirilir.*

*Mərkəz həm yaradıcı elita, həm də istedadlı gənclərlə əməkdaşlıq edir, onların inkişafına və özünü ifadə etməsinə dəstək verir. Ənənə və müasirliyi birləşdirən bu məkanın əsas fəaliyyət istiqamətləri bunlardır:*

*- Gənc ədiblərə dəstək;*

*- Azərbaycan ədəbiyyat və mədəniyyətinin təbliği;*

*- Gənclərin mədəni inkişafı və asudə vaxtının səmərəli təşkili;*

*- Beynəlxalq mədəni əlaqələrin qurulması.*

*Ətraflı məlumat üçün: https://maksudibragimbekov.az/az/yaradilis-tarixi-konsepsiya/*









## Ədəbiyyat siyahısı




[Azərbaycan nəsri antologiyası : 5 cilddə : 1960-cı ildən sonrakı dövr. - C. 5. - Bakı: Şərq-Qərb, 2006. - 352 s.]

Kitabda 1960-cı illərdən sonrakı dövrlərə qədər Azərbaycan nəsrinin görkəmli nümayəndələrindən əsərlər daxil edilib. Təqdim edilən nəsr nümunələri arasında Maqsud İbrahimbəyovun “Bütün yaxşılıqlara ölüm” adlı əsərə yer verilmişdir.




[Final restoranı: pyes = Ресторан Финал : пьеса = The Final Restaurant. - Bakı : Səda, 2007. - 168 s.]

Biz oxucular bizə yeni bir şey öyrədən, bizi narahat edən problemlərə toxunan, qapandığımız aləmdən bizi qoparıb başqa nəticələrə gətirib çıxaranları sevirik. O kəsləri ki, şəxsi taleyimizə bir işıq salır, dünyanı başqa cür dərk etməyin mümkünlüyünü bizə göstərir. Maqsud İbrahimbəyovun yeni, adında acı bir istehza olan "Final restoranı " pyesi məhz bu sıradandır. Onun qələmindən çıxan başqa əsərləri kimi çox aktualdır.




[Əsas versiya = Основная версия. - Bakı : Səda, 2005. - 96 s.]

Maqsud İbrahimbəyovun bu kitabına "Qara böv", "Əksinqilabi etüd" adlı publisistik məqalələri daxildir. Gələcək nəsillər üçün əsrin əvvəlində Azərbaycanda həqiqətən nələr baş verdiyini bilmək faydalı olacaq.




[Qara paltarlı qadın. - Bakı : TEAS PRESS Nəşriyyat evi, 2020. - 164 s.]

Əsər insanın cəmiyyət qarşısında borcu, fədakarlıq və ədalətsizlik mövzularına toxunur. Əsərdə hadisələr Cavanşir adlı qəhrəmanın timsalında təqdim olunur. O, şəxsi həyatını deyil, xalqının rifahını düşünərək fəaliyyət göstərən, mənəviyyatlı bir insan obrazıdır. Lakin əsərin sonunda bu fədakarlığın qarşılığı gözlənildiyi kimi olmur. Xalq üçün çalışan bir insanın faciəvi aqibəti oxucuda dərin təəssüf doğurur və əsər düşündürücü, emosional təsir bağışlayan bir notla başa çatır.




[Qoy o, bizimlə qalsın : orta və yuxarı sinif şagirdləri üçün. - Bakı : Matsis, 2018. - 218 s.]

Kitaba yazıçının xeyli vaxtdır təkrar nəşr edilməyən "Qoy o, bizimlə qalsın", "Bütün yaxşılıqlara görə ölüm" povestləri daxil edilib.




[Müdrik sfinks gülümsəyir : pyes. - Bakı : Səda, 2002. - 84 s.]

Müəllif "sfinks" obrazını simvolik bir vasitə kimi istifadə edərək, insanın qarşısında duran mövcud suallara cavab axtarışını və həyatın ən vacib mənalarını tapmağa çalışan bir şəxsiyyətin təsvirini yaradır.




Müdrik sfinks gülümsəyir : Pyes = Нефтяной бум улыбается всем : пьеса. - Bakı : Səda, 2005. - 160 s.

Pyes azərbaycan və rus dillərində daxil edilmişdir.




Seçilmiş əsərləri : 2 cilddə. C. 1. - Bakı : Avrasiya Press, 2007. - 392 s.

Seçilmiş əsərləri : 2 cilddə. C. 2. - Bakı : Avrasiya Press, 2007. - 240 s.

Görkəmli Azərbaycan yazıçısı M.İbrahimbəyovun seçilmiş əsərlərindən ibarət kitabın I cildində onun müxtəlif illərdə yazdığı povestləri, II cildində isə 1941-1945-ci müharibə illərindəki siyasi olaylardan bəhs edən “Dənizdə qasırğa” romanı və “Müdrik Sfinks gülümsəyir” pyesi daxil edilmişdir.




Strasburqlu bədxah = Недобрый человек из Страсбурга = We aren't Scared of the Grey Wolf. - Bakı : Səda, 2005. - 144 s.

Kitab bədxah qonşular və onların havadarları haqqındadır.

Uşaqlığın son gecəsi : hekayələr. - Bakı : TEAS PRESS Nəşriyyat evi. - Üç alma uşaq ədəbiyyatı, 2020. - 387 s.




Azərbaycan kinosu tarixində özünəməxsus dəsti-xətti ilə seçilən Maqsud İbrahimbəyovun uşaqlar üçün yazdığı hekayələr də obrazlı və sadə ifadə tərzi, gündəlik məişət qayğılarının səmimi və realist təsviri ilə seçilir. Yaşadığı dövr üçün quruluşun, siyasi və ictimai vəziyyətin olduqca cəsarətli ifadə tərzinə görə yadda qalan bu hekayələr əslində sovet məişətinin çətinliyi, sovet insanının həyat tərzi haqqında dolğun təsəvvür yaradır. II Dünya müharibəsi zamanı arxa cəbhədə ən böyük rola malik neft Bakısında insanların yaşadığı çətinliklər ilk baxışda uşaqsayağı görünür, lakin acı həqiqət dili ilə təsvir olunur. Məhz buna görə oxucu bu hekayələri dönə-dönə oxumaq istəyir və hər dəfə yeni bir detalı kəşf edir.

**Haqqında dövri mətbuatda**

Ağabalayeva, S. Yaddaşın izi ilə : Maqsud İbrahimbəyov - 80 // Ədəbiyyat qəzeti. - 2015. - 16 may. - № 30/31. - S. 11. ; 23 may. - № 32/33. - S. 28-29.

Ağabalayeva, S. Yaddaşın izi ilə: II hissə // Ədəbiyyat qəzeti. - 2015. - 23 may. - S. 28 - 29.

Anar. Nəslin yarpaq tökümü // Ədəbiyyat qəzeti. - 2016. - 2 aprel. - S. 3.

Dadaşov A. Yazıçı, dramaturq, ssenarist // Ədəbiyyat qəzeti. - 2005. - 13 may. - S. 3.

Əlişanoğlu, T. Bədii sərgüzəştlər, tarixi gerçəklər romanı // Ədəbiyyat qəzeti. -1998. - 30 oktyabr.

Əliyev R. Qəhrəmanın gücü və gücsüzlüyü // Ədəbiyyat və incəsənət. - 1985. - 24 may. - № 21. - S. 7.

Əzizxanlı, Q. Söz, fikir inşaatçısı // Kalo qəzeti. - 1999. - 1 avqust.

İbrahimbəyov, M. Həmyerlimiz Amerika şəhərinin fəxri vətəndaşıdır: [müsahibə] / [söhbətləşdi] M. Peyzel. - 1989. - 29 iyul.

İbrahimbəyov, M. Mühüm mövzu ətrafında bəzi düşüncələr : [müsahibə] / [söhbətləşdi] L.Bağırova // Kalo qəzeti. - 2000. - 27 sentyabr. - S. 1-2.

Kazımzadə, A. O, dünya şöhrətli sənətkar idi // Ədəbiyyat qəzeti. - 2016. - 2 aprel. - S. 3.

Qasımzadə, İ. Yaşamaq istedadı : Maqsud İbrahimbəyov - 80 // Azərbaycan : jurnal. - 2015. - № 5. - S. 39-41.

Maqsud İbrahimbəyov – 70 / Azərbaycan Yazıçılar Birliyi // Ədəbiyyat qəzeti. - 2005. - 13 may. - S. 3.

Maqsud İbrahimbəyov (1935-2016) // Savalan. - 2018. - 24-31 iyul. - № 40. - S. 2.

Maqsud İbrahimbəyovun 90 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (13 fevral 2025-ci il ) // Respublika. - 2025. - 14 fevral. - № 33. - S. 3.

Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov // Ədəbiyyat qəzeti. - 2016. - 2 aprel. - S. 2.

Məmmədova C. Bir nəslin bədii dünyası // Ulduz. - 1980. - 10. - S. 58-62.

Nadir, N. Bütün yaxşılıqlara - ədəbiyyət : Maqsud İbrahimbəyov - 90 // Qobustan. - 2025. - № 1. - S. 38-42.

Nəcəfxanlı Ə. Ədəbiyyatımızın zadəgan nasiri : Maqsud İbrahimbəyov - 90 // Xalq qəzeti. - 2025. - 23 fevral. - № 41. - S. 10.

Şarovski, A. Yalana və saxtakarlığa qarşı amansız idi // Ədəbiyyat qəzeti. - 2016. - 2 aprel. - S. 3.

Tanınmış Azərbaycan yazıçısı Maqsud İbrahimbəyova Rusiya ordeni təqdim edilmişdir / AzərTac // Xalq qəzeti. - 2005. - 21 sentyabr. - S. 4.

Yusifli, V. Mənim tanıdığım Maqsud İbrahimbəyov 90 yaşına // Ədəbiyyat qəzeti. - 2025. - 28 fevral. - № 8. - S. 19.

**Əsərləri dövri mətbuatda**

Baltimor skunsu // Azərbaycan. - 2007. - 29 sentyabr. - S. 4-5.

Əksinqilabi Etüd // Xalq qəzeti. - 2005. - 19 may. - S. 3.

Kirpi // Göyərçin. - 2024. - № 1. - S. 9.

## *Videoqalereya*

Prezident İlham Əliyev Xalq Yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edib / Azərtac

https://www.youtube.com/watch?v=nW7tLLUawlI

Bu gün görkəmli yazıçı Maqsud İbrahimbəyovun doğum günüdür / İctimai TV

https://www.youtube.com/watch?v=8MkusrymeOI

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi - İçərişəhərin incisi / Mədəniyyət TV

https://www.youtube.com/watch?v=ouMYaCaMXM4

Xalq Yazıçısı, kinodramaturq və rejissor Maqsud İbrahimbəyovun Bakıda xatirə gecəsi / Az TV

https://www.youtube.com/watch?v=WlrMWNh1lVc

Maqsud İbrahimbəyov – reportaj / Mədəniyyət TV

https://www.youtube.com/watch?v=kKWpqCpmf-U

Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi / Heydər Əliyev Fondu

https://www.youtube.com/watch?v=rGUqz06hfCU

Maqsud İbrahimbəyov - Магсуд Ибрагимбеков / Mədəniyyət TV

https://www.youtube.com/watch?v=YwztD2WxPIQ

Heykəllər danışsa - Maqsud İbrahimbəyov / Mədəniyyət TV

https://www.youtube.com/watch?v=buUphIzyWi4

Maqsud İbrahimbəyovla vida mərasimi / Azadlıq Radiosu

https://www.youtube.com/watch?v=v264Bzj7mKA